

SSENARİ

8 MART

BEYNƏLXALQ QADINLAR GÜNÜ

Mədəniyyət evi və klub müəssisələrində keçiriləcək tədbirin ssenarisi

FEYRUZ BAĞIROV

Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi

Elmi Metodik Mərkəzin direktoru:

İmza Nizami Əzizəliyev

Naxçıvan MR Elmi Metodik Mərkəzin “Klub işinin metodikası” şöbəsi

8 MART

BEYNƏLXALQ QADINLAR GÜNÜ

Mədəniyyət Evi və Klub müəssisələrində “8 - Mart Beynəlxalq Qadınlar Günü” münasibətilə keçirilən mədəni-kütləvi tədbir üçün nümunəvi ssenari

METODİK GÖSTƏRİŞ

Keçiriləcək tədbir yerində “8 - Mart Beynəlxalq Qadınlar Günü” mövzusunda həvəskar rəssamların əsərlərindən ibarət bədii yaradıcılıq sərgisi açılmalı və aparıcıların duracağı yerdə (səhnədə) arxa planda “Əziz qadınlar, 8 - Mart Beynəlxalq Qadınlar Günü münasibətilə bayramınız mübarək!” sözləri yazılmış şüar asılmalıdır.

Tədbirə dəvət olunanların əksəriyyəti qadınlar olmaqla, yaxınlıqdakı məktəbin yuxarı sinif şagirdləri də gələ bilər. Tədbirdə əvvəlcədən hazırlanmış siyahı üzrə uzun illər əmək fəaliyyətində nümunəvi xidmət etmiş qadınlara veriləcək “Fəxri vərəqə” və ya yeni nəşr olunmuş kitab hədiyyələri (lazım gələrsə çiçək dəstələri də) olmalıdır.

Tədbiri Mədəniyyət Evi və ya Klubun müdiri (və ya səlahiyyətli kişi işçisi) giriş sözü ilə açaraq və tədbir iştirakçılarını şəhər (rayon) Mədəniyyət və Turizm Şöbəsi adından təbrik etməlidir. Bundan sonra səhnəyə (araya) iki nəfər əvvəlcədən hazırlanmış (oğlan və ya qız məktəbin yuxarı sinif şagirdləri) aparıcılar gəlir;

BİRİNCİ APARICI

Hörmətli tədbir iştirakçıları! Sizi qarşıdan gələn 8 - Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə bayramınızı təbrik edirik! (Alqışlar).

İKİNCİ APARICI

Əziz və hörmətli tədbir iştirakçıları! Gəlin birlikdə bu əziz bayramın yaranma tarixçəsinə nəzər salaq;

1910 - cu ildə Almaniyanın Kopenhagen şəhərində alman sosialisti Klara Setkin etsə də, lakin 1857 - ci ilin 8 Martında Amerikanın Nyu - York şəhərindəki toxuculuq fabrikinin fəhlə qadınları, öz hüquqlarını tələb etmək üçün tətil etmişlər. Həmin tətilə səbəb qadınların əmək haqlarının kişilərinkindən az və iş şəraitinin pis olması idi.

BİRİNCİ APARICI

Nəhayət ki, sosializmə dəstək verən Kopenhagendə keçirilmiş 2 - ci Beynəlxalq Qadın Konfransının iştirakçıları, Klara Setkinin təşəbbüsünü müdafiə edərək qərar qəbul edilmişdir. Beləliklə 1911 - ci ildə Beynəlxalq Qadınlar Gününü Almaniyada, Avstriyada, İsveçrədə və Danimarkada təntənəli surətdə keçirilmişdir.

İKİNCİ APARICI

1913 - cü ildə Beynəlxalq Qadınlar Gününü Rusiyada da qeyd etmişlər. Birinci Dünya müharibəsi başlanması nəticəsində bu bayramın keçirilməsi ləngidilmişdir. Nəhayət 1917 - ci ildə Rusiya bolşeviklərinin Çar Rusiyasına qarşı inqilabından sonra, Beynəlxalq Qadınlar Günü haqqında yenidən danışıqlara səbəb olmuşdur. Nəhayət ki, uzun sürən danışıqlardan sonra bu bayrama rəsmi status verilmişdir.

BİRİNCİ APARICI

Bilmək lazımdır ki, bu bayramın keçirilməsinə Rusiya bolşevikləri heç də, qadınlar gününü əziz tutmaq üçün yox, sadəcə Avropanın sosialist qadınlarından kişiyə (ərlərinə) qarşı mübarizədə istifadə etmək olmuşdur. Həmin ideya isə olduqca sadə idi. Belə ki, bu bayram vasitəsilə sovet qadınlarını xüsusilə müsəlmanları İslam dinindən və hər hansı bir dini ibadətlərdən ayırmaq məqsədi güdmüşdür.

İKİNCİ APARICI

1917 - ci ildə Beynəlxalq Qadınlar Günü - Azərbaycanda da qeyd edilmişdir. 1920 - ilin 28 aprel tarixindən Azərbaycanda Xalq Cümhuriyyəti, Rusiyanın bolşevikləri tərəfindən ləğv edilərək hakimiyyət sovetlərin əlinə keçmişdir.

Bolşevik Azərbaycanında milli mədəni forma və metodlara qarşı kəskin ideoloji təbliğat işləri aparılaraq, nəticədə Azərbaycan qadınına (dırnaq arası) “azadlıq” imkanları verilməklə qara çadra örtüyündən azad olmuşlar.

BİRİNCİ APARICI

Azərbaycanda Qadın azadlığı ideyaları güclənərək yeni-yeni bədii və tətbiqi sənət əsərləri ortaya çıxmışdır. Onlardan 1960 - cı ildə Bakı şəhərində ucaldılmış heykəltəraş Fuad Əbdürrəhmanovun düzəltdiyi “Azad qadın” heykəli və Cəfər Cabbarlının yazdığı “Sevil” dram əsərlərini nümunə göstərmək olar.

İKİNCİ APARICI

1965 - ci ildə keçmiş Sovetlər ölkəsinin təklifi ilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən 8 - Mart Beynəlxalq Qadınlar Gününü qərara almışlar. Həmin ilin 8 - May tarixli fərmanına görə keçmiş Sovetlər ölkəsində 8 - Mart Beynəlxalq Qadınlar Gününü, istirahət günü kimi qeyd edilmişdir.

BİRİNCİ APARICI

1991 - ci ildən Sovetlər ölkəsi dağıldıqdan sonra, Baltikyanı ölkələr ilə Qafqazdakı Gürcüstan və Ermənistan dövlətləri, 8 - Mart Beynəlxalq Qadınlar Günü bayramını rəsmi şəkildə ləğv etmişlər.

İKİNCİ APARICI

1923 - cü ildən Azərbaycanda “Şərq qadını” (redaktoru Asya Sultanova idi) adlı jurnal (sonrakı illərdə “Azərbaycan qadını” adı ilə) nəşr olunmağa başlanmışdır. Həmin mətbu orqanı vasitəsi ilə Azərbaycan qadınlarının hüquq və bərabərliyi məsələləri ilə yanaşı, ictimai həyatda kişilərlə bərabər hüquqlu olmaları təbliğ olunurdu.

BİRİNCİ APARICI

1921 - ilin fevralın 8 - dən 11 - dək Bakıda Azərbaycan qadınlarının Birinci Qurultayı keçirilmişdir. Qurultayda 1.188 nümayəndə iştirak edərək onların 815 nəfəri Bakıdan və 373 nəfəri isə qəzalardan gələnlər idi. Qadınların Birinci Qurultayında Azərbaycanın o vaxtkı dövlət rəhbərlərindən Nəriman Nərimanov, Ruhulla Axundov, Səməd Ağamalıoğlu, Mirbağır Qasımov, Dadaş Bünyadzadə və başqaları çıxış etmişlər.

İKİNCİ APARICI

1957 - ci ilin Mart ayının 28-29 - da Bakıda keçirilən Azərbaycan qadınlarının İkinci Qurultayında 745 nümayəndə iştirak etmiş və 1967 - ci il oktyabrın 20-22 - dək Bakıda keçirilən Üçüncü Qurultayda 506 nümayəndə və 1972 - ci il iyunun 15-16 - da Bakıda keçirilən Dördüncü Qurultayda isə 495 nümayəndə iştirak etmişdir. Tarixi statistik rəqəmlərdən göründüyü kimi, nədənsə nümayəndələrin sayı artmaqdan azalmağa başlamışdır.

BİRİNCİ APARICI

1995 - ci ildən Naxçıvan Muxtar Respublikasında "Sevil" Qadınlar Məclisi yaradılaraq, qadın problemləri, cəmiyyətdə qadınların yeri, vəzifə və qayğıları eləcə də Beynəlxalq qadın hərəkatının öyrənilməsi məsələləri öz həllini tapmışdır. Dünya qadınları sırasında öz layiqli yerini tutmuş Muxtar respublika qadınları, böyük inkişaf yolu keçməklə qəhrəman övladlar böyütmüş, vətənin, torpağın erməni vandallarından qorunması uğrunda kişilərlə birlikdə çiyin-çiyinə mübarizə aparmışlar.

İKİNCİ APARICI

Muxtar respublikada yaradılmış "Sevil" Qadınlar Məclisinə uzun illər Əməkdar həkim Nüşabə Əliyeva sədr, şairə Mətanət Hüseynxan qızı müavin və Naxçıvan şəhər Qadınlar cəmiyyətinə isə həkim Yazgül Rzayeva sədrlik etmişlər.

BİRİNCİ APARICI

Naxçıvan Muxtar Respublika Qadınlar Məclisinin hər 5 (beş) ildən bir Konfransı çağırılaraq, səsvermə yolu ilə sədr, idarə heyəti və təftiş komissiyası seçirlər. Haliyyədə Muxtar respublikada "Ana və uşaq problemləri üzrə Komitə" fəaliyyət göstərir.

İKİNCİ APARICI

Ulu öndər Heydər Əliyev Müstəqil Azərbaycanın Prezidenti olarkən, Azərbaycanda Qadın problemləri üzrə Dövlət Komitəsi yaradılmış, "Azərbaycan Respublikasında Dövlət Qadın siyasəti haqqında" fərmanının həyata keçirilməsi bu sahədə bir qədər də geniş imkanlar yaratmışdır.

BİRİNCİ APARICI

“Hər il Martın səkkizi, oxşayır qəlbimizi,
Gün çox əzizi - Anaların bayramı!
Hər yan şənlik, çal - çağır, şairlər ilhamıdır,
Dünyanın bayramıdır, Anaların bayramı!
Ana - həyat deməkdir, solmayan tər çiçəkdir,
Yer üzündə bəzəkdir, Anaların bayramı!”

İKİNCİ APARICI

“Analar bayramıdır, gəlib Martın səkkizi,
Əziz analar, hamı təbrik eləyir sizi.
Nəçi olunca olsun, ana daim anadır,
Sənət, şöhrət bir yana, analar bir yanadır.
Mərd övladlar yetirən, mərd analar var olsun!
Yer üzündə analar, daim bəxtiyar olsun!”

BİRİNCİ APARICI

“Hər ölkədə anadır, ana deyilən ana,
Anamız yer dolanır, anaların başına.
Milyon ana ah çəkər, bir övlad günahından,
Dünya qara geyinər, bir ananın ahından.
Bir ananın alqışı, min övlada bəs edər,
Bir ananın qarğışı, bu dünyanı tərpədər.”

İKİNCİ APARICI

“Anamın səsini nə vaxt ki, duysam,
Sevincim, fərəhim azalmaz, bitməz.
Fədakar anamın zəhmətin saysam,
Tarixlər, əsrlər heç, buna yetməz.
Ana zəhmətinin qiymətin versən,
Buna heç bir kəsin qüvvəti yetməz.
Dünyanın incisin, qızılın tökşən,
Ana zəhmətinin zərrəsi yetməz.
Anadır insana həyatda dayaq,
Övladın yolunda yanan bir çıraq.
Ananın əvəzi yoxdur dünyada,
Özüm qurban olum, bu müdrik ada.”

BİRİNCİ APARICI

“Gülüşündən günəş doğar, ay doğar,
Şirin sözü gül sərgisi, İlk bahar.
Hər möhnətə qalib gələn gücü var,
Qadın ana, qadın bacı, qadın yar.
Daş üstündə gül bitirər əlləri,
Od içindən ad götürər əlləri.
Din-bərəkət, var gətirər əlləri,
Qadın ana, qadın bacı, qadın yar.
Ömrü-günü övladına şam eylər,
Məkrləri yüz kişini ram eylər.
Bir baxışı yüz cəlladı mum eylər,
Qadın ana, qadın bacı, qadın yar.

İKİNCİ APARICI

"Yalnız əməlləri uğurdur, uğur,
Ondandır adlanan uğur analar.
Necə ki, zülməti şəfəqlər boğur,
Boğmalı nə varsa boğur analar.
Eşqi qəlbdən gəlir, arşına gəlmir,
Vətəni sevməyən xoşuna gəlmir.
Sağlığı əzabdan sağır analar,
Dağ boyda olsa da çəkir qəm yükün,
Ağ günlər naminə ağardır tükün."

BİRİNCİ APARICI

"İnsanlığın təcəssümü, Ulu Tanrı təbəssümü,
Məhəbbətin saf düzümü, anaların laylasında.
Günəş nuru, hərarəti, təbiətin məharəti,
Çiçək ətri, təravəti, anaların laylasında.
Deyimlərin ən asanı, möcüzələr Gülüstanı,
Hər misrası xalq dastanı, anaların laylasında.
Hikmət dolu xəzinələr, nəğmə dolu dəfinələr,
İnam, ümid, qeyrət, hünər, anaların laylasında."

İKİNCİ APARICI

Əziz və hörmətli tədbir iştirakçıları! 8 - Mart Beynəlxalq Qadınlar Günü münasibətilə belə bir gözəl tədbirimizdə ana-bacılarımızı vəsf edən şairlərimizdən Hikmət Ziyanın, Mikayıl Rzaquluzadənin, Bəxtiyar Vahabzadənin, Gülnarə Yusifqızının, Səhləb Məmmədovun və Əbülfəz Ülvinin şerlərini bədii qiraət etdik.

BİRİNCİ APARICI

İndi isə bu gözəl bayram münasibəti ilə tədbirimizdə iştirak edən ictimai işlərdə fəal olan qadın və bacılarımızı Mədəniyyət Evi (və ya Klub) kollektivi adından çiçək dəstələri, "Fəxri vərəqə" və yenicə nəşrdən çıxmış kitab hədiyyələri ilə təbrik edək; Alqışlar!

Bundan sonra tədbir siyahısında adları olan iştirakçılar səhnəyə, aparıcıların dayandıqları yerə çağırılaraq və onlara çiçək dəstələri ilə təbrik hədiyyələri verilir. Alqışlardan sonra Mədəniyyət Evinin (Klubun) səlahiyyətli nümayəndəsi: 8 - Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə, bayramınızı bir daha təbrik edirik! Alqışlar! İndi isə bu gözəl bayram münasibətilə Mədəniyyət Evi (Klub) və ya məktəb bədii özfəaliyyət kollektivinin ifasında kiçik proqramda çıxışa başlayırıq.

Əvvəlcədən tutulmuş proqram əsasında istedadlar, tədbir iştirakçıları qarşısında çıxış edərək və öz bacarıqlarını nümayiş etdirirlər...

Feyruz Bağırov

“Klub işinin metodikası” şöbə müdiri